# “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 1.1.9-cu maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın

səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın:

3.1. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanunundan irəli gələn müvafiq normativ hüquqi aktları üç ay müddətində hazırlayıb qanunvericilikdə nəzərdə tutulmuş qaydada təsdiq etsin;

3.2. ölkədə sığorta sisteminin inkişafını, sığortaçıların ödəmə qabiliyyətinin və maliyyə sabitliyinin gücləndirilməsini, habelə sığortalıların maraqlarının qorunmasını təmin edən tədbirlər hazırlayıb həyata keçirsin;

3.3. həmin Qanunun icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində digər zəruri tədbirlər görsün.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 13 mart 2008-ci il.

**No 735**